UOT 327

NƏZRİN KƏRİMOVA
Azərbaycan Dillər Universiteti
ORCID ID: 0000-0002-6905-5128
lilia.ahmedova@mail.ru

TRANSSƏRHƏD ƏMƏKDAŞLIĞI REGİONLARIN BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ İŞTİRAKININ BİR FORMASI KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/116-120

Məqalədə regionaların beynəlxalq münasibətlərdə iştirakı ilə bağlı bəzi nəzəri və praktiki məsələlər araşdırılır. Qeyd olunur ki, belə iştirakın formalarından biri müxtəlif ölkələrin regionları arasında sərhədyanı əməkdaşlıqdır. Məqalədə müəyyən ölkələrin regionları arasındakı münasibətlər təsnifləşdirilir, eyni zamanda, müxtəlif dövlətlərin qonşu regionlarının qarşılıqlı fəaliyyəti kimi nəzərə alınan sərhədyanı əməkdaşlıq, ərazi sərhədini nəzərə almayan ərazi icmaları və orqanları arasındakı əməkdaşlıq kimi qəbul edilən interterritorial əməkdaşlıqdan fərqlənir. Həmçinin sərhədyanı əməkdaşlığın normativ bazasının təhlili əsasında onun inkişafının əsas mərhələləri müəyyən edilir. Məqalədə Gürcüstan-Gürcüstan formullarına həsr olunmuş hissədə bu ölkələrdə sərhədyanı əməkdaşlığın bəzi aspektləri nəzərdən keçirilir. Bu sahədə praktiki fəaliyyətin öyrənilməsi göstərir ki, sözügedən əməkdaşlıq geniş sahələri əhatə edir (kənd təsərrüfatı, turizm, tikinti, qida sənayesi, təhlükəsizlik və s.), qonşu ölkələrin sərhəd regionlarının əhalisinin rifahının artmasını təmin edir, həmçinin ümumilikdə dövlətlərarası münasibətlərin inkişafına töhfə verir.

Açar sözlər: transsərhəd əməkdaşlıq, regionlar, Avropa Çərçivə Konvensiyası və protokolları, Azərbaycan – Gürcüstan sərhədyanı əlaqələri, regional inkişaf.

Giriş. Müasir beynəlxalq münasibətlər sistemində regional və yerli səviyyədə qarşılıqlı fəaliyyətin mühüm formalarından biri sərhədyanı (transsərhəd) əməkdaşlıqdır. Beynəlxalq qarşılıqlı fəaliyyətin xüsusi bir forması kimi transsərhəd əməkdaşlıq Avropada, eləcə də ABŞ ştatları ilə Kanada əyalətləri arasında əsasən XX əsrin ikinci yarısından etibarən təşəkkül tapmışdır. Bu əməkdaşlıq modeli sərhədyanı ərazilər səviyyəsində iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə, mədəni və turizm əlaqələrinin genişləndirilməsinə, habelə beynəlxalq ünsiyyətin digər istiqamətlərinin inkişafına imkan yaradır [13, s.76].

"Transsərhəd əməkdaşlıq" termini beynəlxalq hüquqi sənədlərdə rəsmi olaraq ilk dəfə 1980-ci il 21 may tarixində qəbul edilmiş "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasında (Madrid Konvensiyası), həmçinin onun Əlavə protokollarında təsbit edilmişdir. Sözügedən Konvensiyaya əsasən, transsərhəd əməkdaşlıq ərazi icmaları və hakimiyyət orqanları arasında iki və ya daha çox Konvensiya iştirakçısının yurisdiksiyası çərçivəsində səmimi qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və təşviqinə yönəlmiş birgə fəaliyyəti, eləcə də bu məqsədlə müvafiq müqavilə və sazişlərin bağlanmasını nəzərdə tutur [9, s.75]. Konvensiyanın müddəaları 1995-ci il 9 noyabr və 1998-ci il 5 may tarixlərində imzalanmış əlavə protokollarla daha da inkişaf etdirilərək transsərhəd əməkdaşlığın institusional və hüquqi əsaslarını gücləndirmişdir.

Əsas. Hər bir ölkənin konstitusion xüsusiyyətlərini nəzərə almaqla sərhədyanı bölgələrin qarşılıqlı fəaliyyətinə əlverişli şərait yaratmaq öhdəliyini ehtiva edən Konvensiya Avropa Şurasına üzv dövlətlər arasında sərhədyanı əməkdaşlığın institusional əsaslarının formalaşmasına mühüm təsir göstərmişdir. Bu Konvensiya Avropa məkanında regionların beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməklə yanaşı, yerli və regional hakimiyyət orqanlarının rolunu gücləndirmişdir. Məsələn, Avstriya Konvensiyanı 1982-ci ildə ratifikasiya etdikdən sonra digər Avropa dövlətləri ilə sərhədyanı əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlamağa başlamışdır ki, bu da regional əməkdaşlığın praktik mexanizmlərinin sürətlə formalaşmasına imkan yaratmışdır [15, s.241].

Bu tip müqavilələrdə əməkdaşlıqda iştirak edə biləcək regionlar, yerli icmalar (bələdiyyələr), eləcə də əməkdaşlığın həyata keçirildiyi sahələr konkret şəkildə müəyyən edilir. Təcrübə göstərir ki,

Avropa dövlətləri arasında regionlar və yerli icmalar səviyyəsində əməkdaşlıq əsasən ekologiya, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət, idman, turizm və təhlükəsizlik kimi sahələri əhatə edir. Federativ dövlətlərdə bu sahələr üzrə səlahiyyətlər onları təşkil edən subyektlərin – torpaqların, kantonların və ya bölgələrin ixtiyarına verildiyi halda, unitar dövlətlərdə həmin məsələlər inzibati-ərazi vahidləri səviyyəsində həll edilir. Azərbaycan Respublikasında da məhz unitar dövlətlərə xas olan model tətbiq olunur və ölkəmiz Madrid Konvensiyasını 2004-cü ilin yanvarın 4-də təsdiq etmişdir [5].

Regionlar arasında beynəlxalq əməkdaşlıq ərazilərarası, regionlararası və transsərhəd formalarda həyata keçirilir. Avropa Regionları Assambleyasının Əsasnaməsində regionlararası əməkdaşlıq müxtəlif dövlətlərə mənsub olan regionlar arasında qurulan əlaqələr kimi şərh olunur. Ərazilərarası əməkdaşlıq isə daha geniş anlayış olub, istənilən səviyyədə ərazi orqanlarının digər dövlətlərin müvafiq ərazi orqanları ilə əməkdaşlıq etmək hüququnu ifadə edir. Transsərhəd əməkdaşlıq anlayışı 1998-ci ildə qəbul edilmiş Avropa Çərçivə Konvensiyasına 2 saylı Protokolda daha da genişləndirilmiş və milli qanunvericilikdən asılı olaraq, təkcə qonşu regionların deyil, aşağı səviyyəli ərazi qurumlarının da beynəlxalq əməkdaşlıqda iştirak edə bilməsi təsbit olunmuşdur [16, s.1–2].

Transsərhəd əməkdaşlıq regionların beynəlxalq münasibətlərdə iştirakının əsas formalarından biri olmaqla, daha çox "kiçik inteqrasiya" modeli kimi xarakterizə olunur. Bu əməkdaşlıq növünün əsas fərqləndirici xüsusiyyəti əməkdaşlıq edən ərazilər arasında dövlət sərhədinin mövcudluğudur. Hans-Martin Çudi transsərhəd əməkdaşlığı coğrafi baxımdan bitişik ərazilərdə yerli və regional hakimiyyət orqanları arasında ikitərəfli və ya çoxtərəfli əməkdaşlıq kimi xarakterizə edir və onu ərazilərarası və transmilli əməkdaşlıq formalarından fərqləndirir [9, s.78].

Qonşu olmayan dövlətlər arasında transsərhəd əməkdaşlıqdan danışmaq mümkün deyil. Məhz bu əməkdaşlıq forması sərhədyanı regionlarda infrastrukturun inkişafı hesabına iqtisadi və sosial əlaqələrin sadələşdirilməsinə, ətraf mühitin mühafizəsi və turizm sahəsində iri layihələrin reallaşdırılmasına, kiçik və orta biznes subyektləri arasında qarşılıqlı əlaqələrin intensivləşdirilməsinə şərait yaradır. Transsərhəd əməkdaşlığın ayrıca tədqiqat obyekti kimi nəzərdən keçirilməsi onun obyektiv problemlərlə – ortaq su ehtiyatları, çirklənmənin ötürülməsi, ekoloji balansın pozulması kimi amillərlə sıx bağlı olması ilə izah olunur.

Transsərhəd əməkdaşlığın fəlsəfəsi sərhədyanı ərazilərin ümumi problemlərin həlli məqsədilə birgə planlaşdırma aparması, inkişaf prioritetlərini razılaşdırması və bu prosesə əhalinin bütün sosial qruplarının cəlb olunması prinsipinə əsaslanır. Bu əməkdaşlıq sərhədlərin mövcudluğu və dövlət mərkəzlərindən uzaqlıq səbəbindən yaranan sosial-iqtisadi geriliyin aradan qaldırılmasına yönəlmişdir. Əsas məqsədlər sırasında stereotiplərin və önyarğıların aradan qaldırılması, inzibati və siyasi maneələrin azaldılması, iqtisadi və mədəni infrastrukturun birgə formalaşdırılması qeyd olunur [9, s.79].

Avropada ilk transsərhəd əməkdaşlıq layihəsi 1958-ci ildə Almaniya və Hollandiya sərhədində yaradılmış "Qronau" Avroregionu olmuşdur. Sonrakı dövrdə 1980-ci il Avropa Konvensiyasının prinsiplərinə əsaslanan 100-dən artıq transsərhəd əməkdaşlıq layihəsi həyata keçirilmişdir [10, s.48–49]. Bu layihələr sərhədyanı regionların "mərkəz–periferiya" modelindən çıxmasına və regional inkişafın balanslaşdırılmasına xidmət etmişdir.

Avropa İttifaqında transsərhəd əməkdaşlıq regional siyasətin mühüm istiqamətlərindən biridir. Bu siyasətin əsas məqsədləri sahibkarlığın, xüsusilə kiçik və orta biznesin stimullaşdırılması, turizmin və mədəni əlaqələrin inkişafı, təbii ehtiyatların qorunması, nəqliyyat və kommunikasiya şəbəkələrinin genişləndirilməsi, məşğulluğun artırılmasıdır [20]. Aİ-nin regional siyasətində zamanla aparılan struktur islahatları nəticəsində "Avropa ərazi əməkdaşlığı" əsas prioritetlərdən birinə çevrilmişdir [12, s.258–261; 17, s.21–22; 19, s.6].

Azərbaycan və Gürcüstan arasında transsərhəd əməkdaşlıq Avropa İttifaqının Şərq Tərəfdaşlığı Ərazi Əməkdaşlığı Proqramı çərçivəsində inkişaf etdirilmişdir. Bu layihələr sərhədyanı regionlarda yaşayış şəraitinin yaxşılaşdırılmasına, turizmin inkişafına, ətraf mühitin qorunmasına və sosial inteqrasiyanın gücləndirilməsinə yönəlmişdir [7; 18, s.16–38]. Eyni zamanda, transsərhəd əməkdaşlıq ticarət əlaqələrinin genişlənməsinə, su ehtiyatlarının birgə idarə edilməsinə və təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətin gücləndirilməsinə xidmət edir [1, s.46; 3, s.29–30].

Nəticə. Beləliklə, transsərhəd əməkdaşlıq yalnız xarici siyasi və iqtisadi məqsədlərlə məhdudlaşmayan, sosial, humanitar və mədəni sahələri də əhatə edən çoxşaxəli bir prosesdir. Bu əməkdaşlıq

sərhədyanı regionlarda sosial-iqtisadi problemlərin aradan qaldırılmasına, yerli icmalar arasında qarşılıqlı etimadın formalaşdırılmasına və dayanıqlı regional inkişafın təmin edilməsinə xidmət edir. Onun əsas məqsədi sərhədyanı ərazilərdə əhalinin həyat keyfiyyətinin yüksəldilməsidir.

Azərbaycan üçün transsərhəd əməkdaşlıq formaları nisbətən yeni olduğundan, regionların beynəlxalq əməkdaşlıqda daha fəal iştirakını təmin etmək məqsədilə hüquqi və institusional mexanizmlərin təkmilləşdirilməsi, maliyyə imkanlarının genişləndirilməsi və kadr potensialının gücləndirilməsi zəruridir. Bu istiqamətdə atılacaq addımlar sərhədyanı regionların inkişafına və ölkənin regional əməkdaşlıq sistemində mövqelərinin möhkəmlənməsinə mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT

1. Arıxov, C. Azərbaycan – Gürcüstan dostluq münasibətlərinin inkişaf dinamikası. - Bakı: Qanun, 2008. - 128 s.
2. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu //https://e-qanun.az/framework/21179 [16.01.2026].
3. Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında dayanıqlı inkişaf üzrə əməkdaşlığa dair çərçivə sənədi (2021–2025). - Bakı, 2021. - 95 s.
4. Əlirzayev, Ə.Q., Yusupov, Q.M. Sərhədyanı regionun sosial-iqtisadi inkişafında turizmin rolu // UNEC Elmi Xəbərləri. - 2019. - Cild 7, aprel-iyun. - S.5-17.
5. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasının və onun Əlavə protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. - 9 yanvar 2004-cü il. - //https://e-qanun.az/framework/5410 [16.01.2026].
6. Mamedov, S. Şəki-Zaqatala regionu Azərbaycan Respublikasının Gürcüstan və Rusiya Federasiyası ilə transsərhəd əməkdaşlıq sistemində // Geostrategiya. - 2021. - № 5 (65). - S.27-32.
7. Ordahallı, V. Azərbaycanın qonşularla normal sərhəd əməkdaşlığı Avroittifaqın da diqqətini çəkdi - Gürcüstan istiqaməti… - https://www.baki-xeber.news/iqtisadiyyat/75305.html [16.01.2026].
8. Tbilisidə Azərbaycan–Gürcüstan transsərhəd əməkdaşlığı üçün yeni layihə təqdim olunub. - https://report.az/xarici-siyaset/azerbaycan-gurcustan-transserhed-emekdasligi-ucun-yeni-plan-hazirlanib/ [16.01.2026].
9. Белицкий, М.Е. Трансграничное сотрудничество регионов: методологические основы развития и роль в интеграционных процессах // Беларусь и мировые экономические процессы: сб. науч. статей. - Вып. 5. - 2009. - С.74-91.
10. Кузнецов, А.В. Еврорегионы: полвека «малой» интеграции // Современная Европа. - 2008. - № 2. - С.48-59.
11. Кузнецов, А.В. Перспективы еврорегионов с российским участием с учетом новаций региональной политики ЕС. - М., 2010. - 9 с. - https://mgimo.ru/upload/iblock/aa5/aa5d5b5b3f28bd13019583eea33f1f4e.pdf [16.01.2026].
12. Кузнецова, О.В. Экономическое развитие регионов: теоретические и практические аспекты государственного регулирования. - М.: Эдиториал УРСС, 2002. - 306 с.
13. Логвинова, И.В. Приграничное сотрудничество: правовые основы и особенности в условиях российского федерализма // Пробелы в российском законодательстве. - 2017. - № 6. - С.76-79.
14. Насыров, И.Р. Региональная идентичность и международное сотрудничество регионов // Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. Политика и право. - 2008. - № 4. - С. 103-111.
15. Пронин, А.В. Международно-правовые основы региональной интеграции в Европейском Союзе: опыт Австрийской Республики // Вестник ВГУ. Серия: Право. - 2015. - № 2. - С.239-251.
16. Протокол № 2 Европейской рамочной конвенции по трансграничному сотрудничеству между территориальными сообществами и властями. - Страсбург, 1998. - 5 с. - https://rm.coe.int/168007f301 [16.01.2026].

17. Региональная политика стран ЕС. - М.: ИМЭМО РАН, 2009. - 230 с.
18. Усиление трансграничного сотрудничества сообществ в регионе ЦАРЭС: обозрение и исследование. - Манила: Азиатский банк развития, 2020. - 66 с.
19. Cohesion Policy 2007–2013. Commentaries and official texts. - Brussels, 2007. - 161 p. - https://ec.europa.eu/regional_policy/sources/legislation-and-guidance/regulations/2007-2013/guide2007_en.pdf [16.01.2026].
20. European Territorial Co-operation (INTERREG). Regional Policy - Inforegio. - http://ec.europa.eu/regional_policy/cooperation/index_en.htm [16.01.2026].

НЕЗРИН КЕРИМОВА
Азербайджанский Университет Языков

ТРАНСГРАНИЧНОЕ СОТРУДНИЧЕСТВО КАК ОДНА ИЗ ФОРМ УЧАСТИЯ РЕГИОНОВ В МЕЖДУНАРОДНЫХ СВЯЗЯХ

В представленной статье рассматриваются некоторые теоретические и практические вопросы участия регионов в международных связях. Указывается, что одной из существенных форм такого участия является трансграничное сотрудничество регионов разных стран. В статье проводится классификация внешних связей регионов тех или иных стран, при этом трансграничное сотрудничество, предстающее как взаимодействие сопредельных регионов разных государств, отличается от межтерриториального сотрудничества, воспринимаемого как сотрудничество между территориальными сообществами и властями, не имеющими общей границы. Также на основе анализа нормативной базы трансграничного сотрудничества прослеживаются основные вехи его развития. В статье на примере азербайджано-грузинских взаимоотношений рассматриваются некоторые аспекты приграничного сотрудничества регионов указанных стран. Изучение практических действий в этой области позволило заключить, что означенное сотрудничество, охватывая широкий спектр вопросов (сельское хозяйство, туризм, строительство, пищевая промышленность, безопасность и т.д.), способствует как росту благосостояния населения приграничных регионов обеих стран, так и в целом развитию отношений между этими государствами.

Ключевые слова: трансграничное сотрудничество, регионы, Еропейская рамочная Конвенция и ее протоколы, Азербайджано-грузинские приграничные связи, региональное развитие.

NAZRIN KARIMOVA
Azerbaijan University of Languages

CROSS-BORDER COOPERATION AS A FORM OF PARTICIPATION OF REGIONS IN INTERNATIONAL RELATIONS

The presented article examines some theoretical and practical issues of participation of regions in international relations. It is indicated that one of the participants of the form of such participation is cross-border cooperation of regions of different countries. The article classifies relations between regions of certain countries, while cross-border cooperation, which appears as interaction of adjacent regions of different states, differs from interterritorial cooperation, perceived as cooperation between territorial communities and authorities that do not admit a territorial border. Also, based on the analysis of the regulatory framework of cross-border cooperation, the main milestones of its development are traced. In the article devoted to the consideration of Georgian-Georgian formulations, some aspects of cross-border cooperation in these countries are considered. The study of practical actions in this area

includes that the said cooperation covers a wide range (agriculture, tourism, construction, food industry, security, etc.), ensures the growth of welfare of the population of border regions of neighboring countries, as well as in general issues of development of relations between the states of the Earth.

Keywords: cross-border cooperation, regions, European Framework Convention and its protocols, Azerbaijan-Georgia cross-border relations, regional development.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: s.e.d. Sevda Əliyeva, t.ü.f.d. Məmmədağa Baxışov.